

# GÜNDOĞAR

Qəzet 1931-ci ildən çıxır | NEFTÇALA RAYON QƏZETİ | 31 yanvar 2024-cü il , № 1 (68063)


## 16 YANVAR 2024-cü il - NEFTÇALANIN SALNAMƏSİNDƏ YENİ GÜN, FƏXRLƏ YADDAQALAN TARİX



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala rayonuna səfər edib.**

Dövlətimizin başçısı Neftçala şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Neftçala şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına həyata keçirilir. Layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq qısa müddət ərzində Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər diametri 560 millimetr, uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında Neftçala şəhərinə suyun verilməsi təmin olunub.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:**

***"...Bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri belə qavraya da bilmədilər"...***





2023-cü ildə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək diametrləri 560-450 millimetr, uzunluğu 36 kilometr olan ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.

Bununla paralel olaraq, Neftçala şəhərində ümumi uzunluğu 150 kilometr içməli su təchizatı şəbəkəsi inşa edilib və 5060 sayğac quraşdırılaraq şəhərin su təchizatı sisteminin yenidən qurulması işləri tam yekunlaşıb. Eyni zamanda, layihə çərçivəsində şəhərdə ümumi uzunluğu 145 kilometr tullantı su şəbəkəsi, 8,5 kilometr kanalizasiya kollektoru, 9 nasos stansiyası və məhsuldarlığı gündə 4 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası planlaşdırılır. Ötən dövr ərzində uzunluğu 9,6 kilometr kanalizasiya kollektoru və 1 nasos stansiyası inşa edilib.

Yeni yaradılmış infrastrukturun imkanları hesabına ötən müddətdə Neftçala şəhəri ilə yanaşı, rayonun içməli sudan əziyyət çəkən 39 yaşayış məntəqəsinin problemi həll edilib. Neftçala rayonunun qalan 11 yaşayış məntəqəsi və Salyan rayonunun 6 kəndi də daxil olmaqla, ümumilikdə 17 yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 kilometr uzunluğunda kəmər, tutumu 7500 kubmetr olan su anbarı və 1 su nasos stansiyasının inşası layihələndirilib.

Qeyd olunub ki, indiyədək su xəttinin 64 kilometrlik hissəsi çəkilib, anbarların və nasos stansiyasının tikintisi davam etdirilir.

**Prezident İlham Əliyev Neftçala şəhərinin içməli su təchizatı sistemlərini işə saldı.**









***2024-CÜ İL FEVRALIN 7-DƏ RESPUBLİKAMIZDA KEÇİRİLƏCƏK NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİNDƏ FƏAL İŞTİRAK EDƏK!***

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə zamanı demişdir:

***"...Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə, gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi...***

***Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır..."***

### CƏBRAYIL ŞƏHƏRİNƏ KÖÇƏ AZ QALDI...



**2024-cü ildə Böyük Qayıdış Proqramı çərçivəsində Cəbrayıl rayonundan olan qaçqın və məcburi köçkünlər də həsrətə son qoyaraq öz yurdlarına, ocaqlarına qayıdacaqlar. Hazırda Cəbrayıl şəhər mərkəzində 33 yaşayış binası inşa olunur. 4-5 mərtəbədən ibarət olan bu binalarda 712 mənzil olacaq. Tikinti işləri başa çatdıqdan sonra binalarda 2158 keçmiş məcburi köçkün məskunlaşacaq. Qeyd edək ki, tikinti işləri Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən icra olunur.**

# QAN YADDAŞINI UNUTMA!

***Ümummilli lider Heydər Əliyev: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir".***

## "20 Yanvar" Faciəsi: Azərbaycan xalqının azadlıq və müstəqillik mücadiləsi

**Qədim dövlətçilik ənənələri, yeraltı və yerüstü sərvətləri, milli-mənəvi dəyərləri, ictimai-siyasi və mədəni xadimləri ilə dünyada məşhur olan Azərbaycan dövləti və xalqı qədimdən günümüzə kimi həmişə azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmışdır. Lakin XX əsrin əvvəllərində azərbaycanlıların ermənilər və onları dəstəkləyən regional və beynəlxalq güclərin dəstəyi ilə Azərbaycan xalqına qarşı irqi, dini ayrı - seçkilik siyasəti etmiş, torpaqlarımız işğal edilmiş, Azərbaycan xalqı tarixi Azərbaycan torpaqlarından köçürülmüş, türk-müsəlman xalqlarına qarşı etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirilmişdir. Belə qanlı faciələrdən biri də - Azərbaycan xalqının tarixinə düşmüş "20 Yanvar" faciəsidir.**




Bu faciə Azərbaycan tarixində xalq tərəfindən "Qanlı Yanvar", "Qara Yanvar" adlandırılır. 1985-ci ildə keçmiş SSRİ-nin rəhbəri M. Qorbaçovun Dağlıq Qarabağ Muxtar Vilayətini müxtəlif vasitələrlə Azərbaycan SSR-nin (1920-1990) nəzarətindən çıxarmaq və Ermənistan SSR-nin tərkibinə qatmaq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə qarşı böhtan kampaniyasına başlamaqla onu xalqın gözündən salmaq siyasəti, SSRİ-nin Azərbaycan xalqına qarşı ayrı-seçkilik siyasəti, azərbaycanlıların tarixi torpaqları olan İrəvandan köçürülməsi, Azərbaycan xalqının milli azadlığını boğmaq, Sumqayıt hadisələri, Dağlıq Qarabağdakı hadisələr, 1988-ci ildə milli-azadlıq hərəkatının başlanmasına güclü təkan verdi. Bununla da Azərbaycan xalqı öz azadlığını və istiqlaliyyətini SSRİ-dən ayrılaraq müstəqil Azərbaycan Respublikası qurmaqda gördü.

1990-cı il yanvarın ortalarında SSRİ Müdafiə və Daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək, Bakının Qala və Nasosnu (indiki Z.Tağıyev qəsəbəsi) aerodromlarında, Respublika stadionunda,Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən SSRİ ordu hissələrinin tərkibinə Stavropol, Rostov və Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin sədri M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görmək təklif edilmişdir. SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 19-dan 20-nə keçən gecədən etibarən **"Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında"** fərmanı imzalamaqla keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdur.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılmışdır ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Həmin gecə Bakıda 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən, Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişdilər. Bakı qarnizonunu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçmiş, ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtmışdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək Sovet ordusu öz dövlətinin vətəndaşlarına qarşı qəddar cinayət törətmiş, "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə Bakı şəhərinin əhalisinə rəsmi xəbərdarlıq edilməmişdir. 1990-cı il yanvarın 19-da gecə saatlarında başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər hərbi donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdır. Qanlı Yanvar faciəsində sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 147 nəfər qətl edilmiş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən, təcili yardım maşınları dağıdılmış, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə **5.637.286** rubl miqdarında maddi ziyan vurulmuşdur.

**Neftçala 25 yanvar 1990-cı il Faciəsi**

Dinc əhaliyə divan tutmaq üçün Bakıya yeridilmiş qoşun hissələri bir neçə gün sonra cənub istiqamətinə - Neftçala, Cəlilabad və Lənkərana doğru səmt götürdü. Yanvarın 25-i və 26-da sovet qoşunları həmin bölgələrdə yerli əhali ilə müxtəlif bəhanələr altında qarşıdurmalara gedir, günahsız insanları həbs edir və güllələyirdilər. Hadisə Yanvarın 25-i saat 18:32 radələrində başladı. Hadisələr baş verənə qədər Neftçalada Milli Azadlıq Hərəkatı fəalları hərbçilərin hər hansı qırğın ehtimalını, qarşıdurma yaratmasını önləmək üçün danışıqlar aparırdı. Lakin, Neftçalada təxribat planını həyata keçirən sovet hərbçiləri etiraz dalğasının önündə gedənləri danışıqlar aparmaq adı altında Qarabağı Müdafiə Komitəsinin binasına toplayaraq hədə-qorxu gəlməyə, hansısa silahları təhvil verməyi tələb etməyə başlamışdılar. Adamlar binanın içərisinə toplandıqdan sonra çöldə partlayış səsləri eşidilməyə başladı. Binadan çölə qaçanlar da atəşə tutuldular. Ələ keçən fəallar qolları bağlı vəziyyətdə Bankə qəsəbəsinə aparıldı. Onlara olmazın işgəncələr verildi. Xıllı qəsəbəsində isə tank və PDM-ləri şübhələndikləri adamların qapısına sürür, həyətlərdəki ot tayalarını yandırırdılar. **İbrahim Nurlu "Neftçalada yanvar qırğını" adlı kitabında yazır ki,** "...əsarətin son günləri şəhərin küçələrində tanklar gəzir, sovet əsgərləri vəziyyətə nəzarət edirdilər. Neftçala rayon hərbi komendantı O.Şeluxinin imzası ilə yayılan riyakar məlumatda göstərilirdi ki, xüsusi qoşun hissələri Neftçalaya daxil olan zaman rayon müdafiə şurasının üzvləri silah işlətmiş və xüsusi qoşun hissələri buna cavab olaraq atəş açmışlar. Leytenant Aksyonov ölmüş, bir əsgər yaralanmışdır. Eyni zamanda şəhər sakinlərindən bir nəfər ölmüş, üç nəfər xəstəxanaya düşmüşdür. Guya əhalidə pulemyot, avtomat, tapança və qumbara var və axtarış davam edir". Azərbaycanın müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərin fəal iştirakçısı olmuş 20 Yanvar qazisi Ələkbər Hacı Məhəmmədəli oğlu Talıbov Milli Azadlıq Hərəkatında fəaliyyəti illərini belə xatırlayır: ***"Milli Azadlıq Hərəkatında fəaliyyətim 1988-ci ilin noyabr ayından başlayaraq 1993-cü ilə qədər davam edib. Neftçalada 20 yanvar hadisələrinə etiraz vaxtı ümumiyyətlə, silahımız yox idi. Sadəcə xalq üsyanına qalxıb Bakıda 20 yanvar hadisələrinə öz etirazımızı bildirirdik. Həmin ərəfədə bizə məlumat gəldi ki, hərbi hissə komandiri sizinlə görüşmək istəyir. Biz də görüşə razılıq verdik və düşünürdük ki, təki bizimlə görüşsünlər əhaliyə xətər toxundurmasınlar. Bundan da bir gün qabaq Neftçalada vertolyotlar uçuşur, işıq saçan güllələr atılır və yaxud da özləri təxribat törədirdilər. Atəş açıb camaatın boynuna yıxırdılar ki, guya əhali təxribat törədir. Məlumatımız var idi ki, SSRİ Silahlı Qüvvələrinin Alfa Xüsusi təyinatlıları Neftçalaya gəlib kəşfiyyat aparır. Bizə məlum idi ki, Neftçalada da bu hadisəni törədəcəklər. Neftçalanı hərtərəfli blokadaya almışdılar. Amma bizlər bunu vaxtında duyduq və yeni qırğınların olmasına imkan vermədik. Lakin xalqın iradəsi hökm sahibi olsa da, sovet ordusu bizlərə də divan tutdu. Neftçalada 2 nəfər şəhid oldu... Bakıda da baş verən qanlı hadisələr vaxtı sovet qoşunlarının qırğınının qarşısını almaq üçün balıqçı gəmilərinin təşkil etdiyi blokada da iştirak etmişəm. Bakı buxtasında sovet qoşunlarına qarşı müqavimət göstərmişik. Sipər çəkib şəhərə daxil olmalarını önləməyə çalışmışıq.***

***Ruslara tabe olmayıb öz bayrağımızı gəmimizin körpücüyündə yüksəltmişdik... dəfələrlə sərhədçilər tərəfindən təqiblərə məruz qalmışam. O vaxt iki SSRİ DTK-çısı tərəfindən təqib edilmişəm... Lakin haqq yolunda, xalq yolunda namərdlik ola bilməz deyib əqidəmdən dönməmişəm və dönmərəm... Bir müddət Neftçalada baş verən qanlı hadisələrdən sonra məni öldü sanırdılar. Çünki bizi əvvəlcə Bankə qəsəbəsindəki hərbi hissədə sıraya düzüb güllələmək istəyirdilər, lakin son anda fikirlərindən daşınıb vertolyotla Bakıya gətirmişdilər. Xəzər dənizi üzərindən keçərkən dənizə atmaq fikrinə düşsələr də sonradan bu fikirlərindən də əl çəkmişdilər. Həmin vaxtı bizi - fəalları qalaq kimi üst-üstə vertolyota yükləmişdilər. Bizi dənizə atmayıb Binə Hava limanına gətirdilər. Yenidən bizi sıraya düzüb güllələmək istədilər. Bu anda Azərbaycan Deputat İstintaq Qrupu(Arif Məlikov, Fikrət Əmirov, Ədilə Namazova və b.) hadisə yerinə gəlib bizi sovet hərbçilərindən alıb Şüvələnda yerləşən Tağıyev təcridxanasına apardılar. Vəziyyətimiz ağır olduğuna görə bizi ordan 26 nömərli Mərdəkan şəhər xəstəxanasına gətirdilər. Xəstəxanada da kəndinə əhalisi bizə kifayət qədər diqqət və qayğı göstərdi. Dərmanla, pal-paltarla təmin etdi... Həmin ərəfədə həqiqətən də millət birlik nümayiş etdirirdi. 26 nömərli Mərdəkan şəhər xəstəxanasının həkimlərinə, tibb bacılarına, oranın sakinlərinə təşəkkürümü bildirirəm. Bizə çox yardım etdilər. Sağalandan sonra yenidən mübarizəyə qoşulduq".***

Neftçalada 25 yanvar 1990-cı il hadisəsi zamanı Neftçalada 2 nəfər şəhid olmuş, 10 nəfər yaralanıb, bütövlükdə isə 30 nəfər zərər görmüşdür. 1990-cı ilin yanvar hadisələri zamanı Bakı şəhərinə və respublikanın bir sıra rayonlarına keçmiş SSRİ Silahlı Qüvvələrinin təcavüzkar basqını zamanı yüksək vətəndaşlıq, mərdlik və hünər nümunələri göstərərək Azərbaycanın istiqlaliyyəti uğrunda yaralanmış bir qrup şəxsə Azərbaycan Respublikasının **"Azadlıq uğrunda mübariz"** fəxri adı verilib. Neftçala rayonu üzrə atam Ələkbər Talıbov da daxil olmaqla 12 nəfər bu ada layiq görülüb. Onlardan- Ağahüseynov Nurəddin Aslan oğlu (ölümündən sonra), Cəfərov Əbülfəz Böyükağa oğlu (ölümündən sonra), Orucov Şəmsəddin Əbilhəsən oğlu (ölümündən sonra), Ramiz Cəfər oğlu Hüseynov, Novruz Allahverdi oğlu Dadaşov, Ələkbər Məmmədəli oğlu Talıbov, Bəxtiyar Ağahüseyn oğlu Ağayev,

→ 3

# AZADLIĞIN ŞƏRƏF VƏ QÜRUR SƏSİ --- 20 YANVAR !

## 20 Yanvar faciəsinin 34-cü ildönümü münasibətilə Neftçala rayonunda əziz Şəhidlərimizin xatirəsi ehtiramla yad edildi



**UNUTMADIQ... UNUTMARIQ...**










Xalqımızın tarixində qürur və şərəf yolu kimi dəyərləndirilən, milli azadlığın haqq yolu olaraq qan yaddaşımızda əbədiləşən, hər il bütün soydaşlarımız tərəfindən Ümumxalq Hüzn Günü olaraq qeyd edilən 20 yanvar 1990-cı il faciəsindən 34 il ötür. Hər il olduğu kimi bu il də şəhidlərimizin xatirəsi Neftçala rayonunda böyük ehtiramla qeyd edildi. Bu gün bizi birləşdirən qəlb ağrısı ilə yaddaşımızda formalaşan Ümumxalq Hüzn Günü olsa da, eyni zamanda milli birliyimizin, mübarizliyimizin şərəf və qürur tarixidir.

20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini yad etmək üçün Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar, din xadimləri, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimaiyyət nümayəndələri ilk olaraq Neftçala rayonunda 20 Yanvar şəhidləri üçün ucaldılan abidəni ziyarət etdilər.Şəhidlərin xatirəsinə böyük ehtiram göstərən mərasim iştirakçıları abidənin önünə tər qərənfillər düzərək 20 Yanvar şəhidlərinin xatirəsini ehtiramla yad edərək ruhlarına dualar oxudular. Sonra Neftçala rayon Şəhidlər Xiyabanında Şəhidlərimizin xatirəsi ehtiramla yad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi, Yanvar hadisələri zaman şəhid olan hərbi qulluqçuların və mülki vətəndaşların məzarları ziyarət olundu, gül dəstələri düzüldü və ruhlarına dualar oxundu.

Anım mərasimində şəhid ailələri ilə görüşən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov onların qayğıları ilə maraqlandı. Şəhid ailələri 44 günlük Vətən müharibəsində qazanılan Şanlı qələbəmiz, 19-20 sentyabr 2023-cü il tarixində aparılan lokal antiterror tədbirləri ilə ölkəmizin suverenliyinin tam bərpa olunması, şəhidlərimizin qanının yerdə qalmaması, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək şəhid ailələri adından Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

---

# "20 Yanvar" Faciəsi: Azərbaycan xalqının azadlıq və müstəqillik mücadiləsi

2 ← Məhəmməd Təzəxan oğlu Fərziyev, Fərman Kamran oğlu Hüseynov, Oqtay Əbilhəsən oğlu Orucov, Əliheydər Xanəhəd oğlu Məmmədov, Abdulla Xanalı oğlu Ağayev, İmamverdi Ağaməhəmməd oğlu Zeynalov.

*26 yanvar 1990-cı il Lənkəran faciəsi*

Qanlı yanvar günlərində Azərbaycan xalqının azadlığı uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalanlardan 11-i Lənkəranlı olmuşdur. Onlardan 5-i Telman Bağırov, Mirsalam Əbülfətov, Asif Əsədullayev, Əflatun Kazımov və Azad Mirzəyev yanvarın 19-dan 20-nə keçən gecə Bakı küçələrində sovet ordusunun silahlı təcavüzünün qurbanlarından olublar. Yanvarın 26-da isə 6 nəfər - Tariyel Abdullayev, Salman Baxşıyev, Rövşən Bədəlov, Vaqif Məmmədov, Rahim Məmmədov və Şahin Məmmədov rus desantçıları tərəfindən Lənkəranın Haftoni meşəliyində vəhşicəsinə qətlə yetiriliblər, 11 nəfər yaralandı, 46 nəfər həbs olundu. O zaman təkcə paytaxtda deyil, ölkəmizin hər yerində imperiya əsarətinə qarşı etiraz mitinqləri keçirilirdi. Azərbaycanın cənub bölgəsində də gərgin vəziyyət yaranmışdı. Azadlıq, müstəqillik istəyən xalq ayağa qalxmışdır. Cəlilabad və Astarada sərhəd zastavalarının nəzarət-keçid məntəqələri dağıdılmışdı. Neftçala və Lənkəranda idarəetməni itirən dövlət orqanları iflic vəziyyətə düşmüşdü. Sovet qoşunlarının döyüş texnikası burada da qan tökməyə tam hazır idi. Bu mənfur niyyətini Bakıda "uğurla" həyata keçirmiş ordunun cəza dəstələri əvvəlcə Neftçalaya yollanaraq azadlıq mücahidlərini qanlarına boyadılar. Növbə Lənkərana çatdı. Şahidlərin dediyinə görə, Lənkərana yeridilən rus hərbçiləri xalq hərəkatı nümayəndələrindən guya onlarda olan silahları qeyd-şərtsiz təhvil verməyi tələb edir, dinc əhaliyə divan tutmaqla hədə-qorxu gəlirdilər. Vəziyyətin get-gedə daha dramatik hal aldığını görən fəallar dağlıq meşə zolağına çəkildilər ki, şəhərdəki gərginlik səngisin və əhaliyə heç bir xətər toxunmasın. Amma adamların gözünü qırmaq istəyən "xilaskar" ordunun desantçıları dərhal meşəliyi mühasirəyə alaraq oradakı adamları güllə "yağış"ına tutdular.

**Azərbaycan dövlətinin "20 Yanvar" faciəsi ilə bağlı verdiyi sərəncam, qərar və fərmanlar**

Azərbaycan Respublikasında hər il 20 Yanvar günü rəsmi matəm günü kimi qeyd olunur və qeyri-iş günüdür. Həmin gün Azərbaycan xalqı bütün şəhər və rayonlarından Bakıya gələrək xalqının azadlığı və müstəqilliyi uğrunda canından keçmiş şəhidlərini ziyarət edirlər. Azərbaycanda 1990-cı ilin Qanlı Yanvar hadisəsindən sonra qərənfil matəm gülü kimi tanınır. 20 Yanvar faciəsi ilə əlaqədar olaraq, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Azərbaycan Parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərarı, 1998-ci il avqustun 5-də Bakı şəhərindəki Şəhidlər Xiyabanında (Şəhidlər Xiyabanı - Bakı şəhərində əsasən Qara Yanvar və Qarabağ müharibəsi şəhidlərinin dəfn olunduğu kütləvi məzarlıq, Şəhidlər Xiyabanı müxtəlif dövrlər ərzində Çəmbərəkənd qəbiristanlığı, Dağüstü Park və Kirov Parkı kimi fəaliyyət göstərmişdir) "Əbədi məşəl" abidə kompleksinin ucaldılması barədə Sərəncamı 20 Yanvar faciəsinə öz siyasi-hüquqi qiymətini verdi. 2010-cu ildə Bakının Yasamal rayonunda "20 Yanvar abidə-kompleksi"-nin açılışı olub. Kompleksin üzərində faciə zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub. Şəhidlər Xiyabanı ərazisində yer almış bu abidə 8 guşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir. Sərdabənin divarlarını bəzəyən zərif şəbəkə monumental tikiliyə müəyyən xəfifliyi, hava kimi şəffaflığı bağışlayır. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Şəhidlər Xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz, səkkizguşəli günbəzin məsamələri qızılla işlənmişdir. Yalnız Bakı, Neftçala və Lənkəranda deyil, Azərbaycanın bütün şəhər və rayonlarında həm 20 Yanvar, həm Xocalı, həm də Qarabağ müharibəsi şəhidlərinə aid Şəhidlər Xiyabanı vardır. Allah şəhidlərə rəhmət eləsin.Amin!

**Sübhan Talıblı**
**AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi,**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

---

## *Tarixin qan yaddaşı xatirələrdə...*

19 yanvardan 20 yanvara keçən gecə imperiya sovet ordusu müxtəlif qoşun hərbi birləşmələri heç bir xəbərdarlıq etmədən Bakı şəhərinə bir neçə istiqamətlərdə, tank, təyyarə, digər hərbi qüvvələrlə daxil oldu. Onlar dinc əhaliyə, silahsız insanlara, haqq və ədalət uğrunda mübarizəyə qalxan yurd fədailərinə atəş açdılar. Yüzlərlə, insan şəhid oldu, minlərlə insan ağır yaralandı.

...Neftçala da o zaman 20 Yanvar Şəhidləri üçün matəm saxlayırdı. Rayon fəalları həmin gündən bir neçə gün sonra məlumat aldı ki, sərhəd rayonlarının rəisi, onun köməkçisi bizimlə görüşmək istəyir. Görüş vaxtı idarə heyətinin binasında 18:40 dəqiqəyə təyin edildi. Danışığı mən aparırdım. Polkovnik Çernobıl və digər hadisələrdən danışırdı, söhbəti sanki qəsdən uzadırdı. Mən ona sual verəndə ki, Bakıda 20 yanvarda nə üçün bu vəhşiliyi törətdiniz, M.Qorbaçovun yenidənqurma, aşkarlıq siyasətinin əsas mahiyyəti budurmu? Türk xalqını qırmaqdırmı? Elə bu an, bir neçə dəqiqə keçməmiş tankların, hərbi maşınların, bizim binaya hücumu başladı. Muzdlu qatillər əllərində avtomat hər tərəfə, insanlara, binalara atəş açaraq hücuma keçdilər. Biz olduğumuz binaya daxil oldular. Atəş səsləri ara vermirdi, onlar bizi divara söykəyərək təpiklə, avtomatla vururdular. Bir neçə nəfər ağır güllə yarası almışdı, mənim sinəmdən, üzümdən, başımdan qan axırdı...

Bizi hərbi maşınlara mindirib Bankə qəsəbəsində yerləşən köhnə əsgər hamamına apardılar. Burada dəhşətli edam başladı. H. Ağahüseynov maşında güllələnmişdi. Burada isə Əbülfəz Cəfərov ağır işgəncələr altında 13 yara almış vəziyyətdə idi. O son nəfəsində:

*"Ay camaat, millətimin, xalqımın, vətənimin yolunda"* - deyərək gözlərini əbədi yumdu. Bizi, yəni bir neçə hərəkat fəallarını dəniz sahilinə apardılar. Qollarımızdan hərbi maşınlara bağlayıb işgəncə verirdilər. Sonra vertolyota mindirib, havaya qalxdıq. Bu zaman da bir neçə dəfə bizi dənizə atmaq istədilər, yenə işgəncə verdilər...

Mən ikinci dəfə xəstəxanada ağır vəziyyətdə müalicə olunarkən yenə həbs olundum, Şüvəlan həbsxanasına gətirdilər. O zaman mən Mərdəkan, Buzovna xəstəxanasında müalicə almışam. **O vaxtdan 34 il keçir. Artq Azərbaycan müstəqil dövlət olaraq öz istiqlalına qovuşmuşdur. Qarabağ Azərbaycandır!**

Tarixin qanlı illəri heç zaman unudulmur. Bu bir xalqın azadlıq səsidir, haqqa doğru inamıdır. Unudulmayacaqdır. Bu gün biz hər birimiz dövlətimizin xoş gələcəyi üçün müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasına çalışmalıyıq. Tarixi günlərdə, mühüm qərarların qəbulunda qan yaddaşımızın ağır sınaq mərhələlərindən ibrət almalıyıq.

Qarşıda yenə dövlətimizin tarixində mühüm əlamətdar hadisə olan Növbədənkənar Azərbaycan Respublikası Prezident seçkiləri günü vardır. Mən 7 fevral tarixində, Prezident seçkilərində hər kəsi fəal olmağa, dövlətimiz üçün ən layiqli olanı seçməyə səsləyirəm.

**İmamverdi Ölməz (Zeynalov),**
**20 Yanvar veteranı, şair, publisist, AYB-nin üzvü, təqaüddə olan müəllim**

# VƏTƏN YOLLU OĞULLAR UNUDULMAYACAQ!



*Vətən müharibəsi Şəhidi Mehman Əliyev 1 yanvar 2002-ci ildə Neftçala rayon Xolqarabucaq kəndində anadan olmuşdur. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olan Mehman Əliyev döyüşlərə qatılır və Xocavənd rayonu uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olur. Mehman Əliyev 29 oktyabr 2020-ci ildə doğma kəndində dəfn edilmişdir. Ruhu şad olsun.*



*Vətən müharibəsi Şəhidi Elçin Əliyev 15 yanvar 1997-ci ildə Neftçala rayon Mikayıllı kəndində anadan olmuşdur. Aprel döyüşlərinin iştirakçısı olan Elçin Əliyev Vətən müharibəsində qəhrəmancasına döyüşərək Qubadlı rayonu istiqamətində döyüşlərdə şəhid olmuşdur. 23 oktyabr 2020-ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.*



*Vətən müharibəsi Şəhidi Mirmöhsüm Əhmədov 21 yanvar 2002-ci ildə Neftçala rayonunda anadan olmuşdur. Vətən müharibəsində hərbi xidmətə yeni başlayan Mirmöhsüm Əhmədov döyüşlərə qatılaraq Füzuli rayonu istiqamətində 28 oktyabr 2020-ci ildə qəhrəmancaına şəhid olmuşdur. Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.*



*Vətən müharibəsi Şəhidi Əmrah Bayramov 18 yanvar 2001-ci ildə Neftçala rayon Bankə qəsəbəsində anadan olmuşdur. Müharibə başlayanda hərbi xidmətdə olan Əmrah Bayramov döyüşlərə qatılaraq Cəbrayıl istiqamətində qəhrəmancasına döyüşmüşdür. Oktyabr ayının 9-da şəhid olan Əmrah Bayramov 30 oktyabr 2020-ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.*



*Vətən müharibəsi Şəhidi Nicat Xankişiyev 27 yanvar 1999-cu ildə Neftçala rayon Həsənabad qəsəbəsində anadan olmuşdur. 21 sentyabr 2020-ci il tarixində hərbi təlimlərə qoşulan Nicat Xankişiyev Vətən müharibəsində kəşfiyyatçı olaraq döyüşmüşdür. 7 oktyabr tarixində Hadrut istiqamətində şəhid olan Nicat Xankişiyev 2 noyabr 2020-ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.*



*Vətən müharibəsi Şəhidi Elmin Nəcəfov 30 yanvar 1999-cu ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. Sentyabr ayının 29-dan döyüşlərə qatılan Elmin Nəcəfov Cəbrayıl rayonunun azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 21 noyabr tarixində Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.*

*Şəhid İbrahim Mənəfov 31 mart 1995-ci ildə Neftçala rayonunda anadan olmuşdur. Neftçala şəhər 3 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Milli Aviasiya Akademiyasına daxil olmuş, təhsilini uğurla başa vurmuşdur. Ali təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra hərbi xidmətə yola düşən İbrahim Mənəfov bütün yoldaşlarının, rəhbərliyin rəğbətini qazanmışdır. Onun hələ tələbə olarkən paylaşdığı fikirlərində Vətənə olan sonsuz məhəbbəti aydın idi: "Müharibə qaçılmazdır və döyüşmək hər bir Azərbaycan vətəndaşının borcudur... Mən də bunu özümə Qarabağ müharibəsi barədə eşidəndən borc bilmişəm və borcumu mütləq qaytarmalıyam... Allah bizi şəhidliyə layiq bilsin, inşallah!" -deyərək bildirmişdir. 2018-ci ilin 19 yanvar gecəsində Ağdamda gecə növbəsində olarkən atəşkəsin pozulması zamanı İbrahim Vətən sədaqətini şərəflə yerinə yetirir. Düşmən təxribatının qarşısını layiqincə alır, qəhrəmancasına Şəhid olur. 19 yanvar gecəsində şəhid olan İbrahim Mənəfov 20 yanvar günü Neftçala rayonunda ehtiramla dəfn edilir. Ruhu şad olsun.*



# TƏBRİK EDİRİK



**Vətən torpaqlarının işğaldan mərd oğullarının, qorxmaz təlimlərə qoşularaq müharibədə böyük xidməti olmuşdur. Bu Zəfər yazmağa, haqq yolumuza işıq bütün dünyanın gözləri qarşısında sərgilədi. Ali Baş Komandan cənab Azərbaycandır!" sözünə qüvvət deyərək həsrətlə gözlədiyi yurd Azərbaycan xalqı idi. Əbədi dönməz xalqı. Mübarizləri, poladları, ilə dünyaya haqq səsimizi tanıdan, tablosunu sərgiləyən Azərbaycan çəksə də, yadelli işğalçıların törətdiyi azad edilməsində xalqımızın hərbçilərimizin, könüllü olaraq iştirak edən cəsarətli oğulların fədakarlıq tariximizdə ən parlaq saçmağa kömək oldu. Bu birlik xalqımızın həmrəyliyini İlham Əliyevin "Qarabağ olaraq xalqımız 30 ilə yaxın sülh yerlərimiz üçün ayağa qalxdı. Bu və mübariz olan Azərbaycan samidləri, muradları, camalları vətəni sevməyin ən gözəl xalqı! Başı əsrlərlə müsibətlər min bir faciəsinə, ağrısına tab gətirərək ayağa qalxan, əyilməyən, mərd, dözümlü Azərbaycan xalqı.**

**Tarixi Qələbəmizin əldə olunmasında şəhidlərimizin, qazilərimizin, bütün müharibə iştirakçılarının əməyi danılmazdır. Biz onların fədakarlığı qarşısında baş əyirik. Allah bütün şəhidlərimizin məkanın behişt eləsin. Qazilərimizə, veteranlarımıza can sağlığı versin. Amin.**

**Vətən müharibəsində bütün qüvvəsi, qəlbi ilə döyüşən qazilərimizdən biri də Əli Sənan oğlu Mehdiyev olmuşdur. Əli Mehdiyev 17 yanvar 1994 - cü ildə Neftçala rayon Yuxarı Qaramanlı kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndində alan Əli Mehdiyev, təhsilini davam etdirərək Bakı Dövlət Universitetinə daxil olmuşdur. 2011-2015-ci illərdə Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" fakültəsində təhsil almış, universiteti müvəffəqiyyətlə başa vurmuşdir.**

**27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda Əli Mehdiyev də Neftçala rayon Hərbi Komissarlığından 29 sentyabr tarixində yola düşərək Vətən üçün fədakarlar sırasında olmuş, cəsarətlə döyüşmüşdür. Döyüşlərin qızğın vaxtında 8 oktyabr 2020 -ci ildə Cəbrayıl rayonu istiqamətində ağır yaralanan Əli Mehdiyev xəstəxanaya çatdırılmışdır.**

**Bu gün Əli Mehdiyev və onun kimi neçə-neçə qazilərimiz, veteranlarımız Vətən müharibəsinin canlı şahidi, canlı tarixidir.**

**Yanvar ayının 17-də Yeni Azərbaycan Partiyasının Neftçala rayon təşkilatının bir qrup əməkdaşları Əli Mehdiyevin görüşünə getmiş onu ad günü münasibətilə təbrik etmişlər. Biz də əziz Qazimizi, qorxmaz Vətən övladı Əli Sənan oğlu Mehdiyevi ad günü münasibətilə təbrik edir, ona həyatda can sağlığı, arzularını işıqlandıran ömür günləri arzu edirik.**

**NİCAT AĞAYEV**

# SOLTAN MÜƏLLİM, 100 YAŞA!



***Dəyərli şairimiz, Neftçalamızın söz sənətinin ustadı, "Xəzər nəğmələri" ədəbi birliyinin rəhbəri şair Soltan Abbasın yanvar ayının 7-də 91 yaşı tamam oldu. Sözü uca tutan, sözə dəyər verən bütün oxucularımız adından Soltan müəllimi təbrik edirik. Əziz şairimizə daim can sağlığı, bütün doğmaları ilə birlikdə xoş günlər diləyirik.***

Şair Soltan İsrafil oğlu Abbasov 1933-cü il yanvar ayının 7-də Neftçala rayonunun Ballıcallı kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində alan şair 6-cı sinfi Boyat kəndində, orta məktəbi isə 1952-ci ildə Xıllı qəsəbəsində bitirmişdir. 1957-ci ildə Bakı Pedaqoji Məktəbini bitirdikdən sonra öz rayonumuza təyinat almış, bir müddətdən sonra təhsilini yenidən davam etdirərək Həsən bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir.

Soltan Abbas 33 il fasiləsiz olaraq Xıllı, indiki Neftçala, Salyan rayonlarında müəllim işləmişdir. Bu illərdə həmçinin Salyan rayonunda çap edilən "Qələbə" qəzetində şöbə müdiri işləmiş, qəzetin nəzdində "Kürün töhfəsi" ədəbi məclisini yaratmış, beş il onun rəhbəri olmuşdur. 1975-ci ildən isə "Gündoğar" Neftçala rayon qəzetinin nəzdində "Xəzər nəğmələri" ədəbi birliyini təşkil etmişdir.

Bu günə qədər qələmi ilə cəmiyyətimizə, vətənimizə, insanlığa xidmət edən şairin bütün yaradıcılığının əsasını yurdsevərlik, vətənsevərlik təşkil etmiş, zəhmətsevərlik, xeyirxahlıq təbliğ edilmişdir. Şair Soltan Abbas neçə-neçə məqalə, oçerklərlə daim mətbuatda çıxış etmişdir. Şairin "Damcı", "Mənə çox öyrəşmə", "Tut ağacı", "Yollar ömür yolum", "Həqiqətin ağzı daş saxlamaz", "Ömrün Şəhidlik zirvəsi", "Rübailər", "Torpağın sahibi", "Səyyah etdi söz məni", "Ömrü yaşadan sözlər", "Ömür töhfəsi", "Torpağın oğlu", "Nakam ömrün yaşıl anları", "Dünya duyumları", "Əfqanıstan Şəhidləri", "Qəzəllər". "Arxaya baxanda"və s. kitabları oxucular tərəfindən daim maraqla qarşılanır və sevilərək oxunur.

***Tutuşub qəm oduna yanarmış könül,***
***Səməndər quşuna dönərmiş könül.***

***Dərd dərdin üstünə köklənən zaman***
***İçindən kövrəlib göynərmiş könül.***

***İlahi, bu dağlar, yaralar nədir?***
***El dərdi üstündə dinərmiş könül.***

***Qaçqın əzabına, düşmən zülmünə***
***A Soltan, doğrudan sipərmiş könül!***

***(S.ABBAS)***

***"GÜNDOĞAR"***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BANİSİ MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ - 140

**M.Ə.Rəsulzadə:** ***"Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal".***



Şərqdə ilk Demokratik Cümhuriyyətin banisi Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü il, yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olub. İlk təhsilini S.M.Qənizadənin 2 saylı rus-tatar(rus-Azərbaycan) məktəbində almış, Bakı Texniki Məktəbini bitirmişdir.

Gənc yaşlarıdan milli azadlıq ideyaları ilə mübarizə aparır, azərbaycanlı inqilabçılar dərnəyi yaratmışdır.1904-cü ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. M.Ə. Rəsulzadə vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edir, xalqı maariflənməyə çağırır, Rusiyanın Azərbaycanda yeritdyi milli qırğın siyasətini kəskin tənqid edirdi. 1905-1907-ci illər rus inqilabının gedişində və bundan sonra Azərbaycanda yaranan milli oyanış, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqalarının çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək"("türk qanlı, islam imanlı, Avropa qiyafətli") məfkurəsi Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir. 1905-1907-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana mühacirət etdi. Rəsulzadə 1908-11-ci illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttarxan və Bağırxanla görüşmüşdür.1911-ci ildə İran inqilabı yatırıldıqdan sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir. Burada çar Rusiyasının təqiblərindən qurtularaq Türkiyəyə sığınmış Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu ilə sıx əməkdaşlıq etmiş, "Türk ocağı" təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında Cənubi Azərbaycan türklərinə həsr olunmuş məqalələrində onların milli-siyasi hüquqlarını müdafiə etmişdir. M.Ə.Rəsulzadə, eyni zamanda, bu dövrdə türkçülük ideyaları ilə daha dərindən tanış olur, böyük Azərbaycan mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin "Vəhdəti cinsiyyə fəlsəfəsi"nə ( "Milli Birlik fəlsəfəsi"nə) yiyələnir, onu farscadan türkcəyə çevirib "Türk yurdu"nda çap etdirir. Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya dönür, "Müsavat" partiyasının rəhbərliyinə keçir.

Şərqdə ilk Dümokratik Cümhuriyyət yaradan və onun İstqlal Bəyannaməsini qəbul edən M.Ə.Rəsulzadənin fəaliyyəti milli oyanış və mübarizə, dövlətçilik tariximizdə unudulmayacaqdır. Onun geniş fəaliyyətini bir yazıda tam əhatə edə bilməsək də, öz ifadəsi ilə amalını, tarixdə yaşayan milli ruhunu görmək mümkündür: ***"...Müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir***" sözləri Parlament üzvlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdır. M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" fraksiyasına (1919-cu ilin oktyabrından "Müsavat" və bitərəflər fraksiyası) başçılıq etmiş, digər istiqlalçı qüvvələrlə birlikdə Azərbaycanın milli və dövlət maraqlarına cavab verən qanunların qəbulunda həlledici rol oynamışdır.

M. Ə. Rəsulzadə Azərbaycanın mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903-20-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir. Bu dovrdə "Yeni Qafqasya" (1923), "Azəri Türk" (1928), "Odlu yurd" (1929), "Qurtuluş" (1934), "Müsavat bülleteni" (1936), "Azərbaycan" (1952) jurnallarını, "İstiqlal" (1932) qəzetini nəşr etdirmişdir. M.Ə.Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. 1955-ci il, mart ayının 6-da Ankarada vəfat etmiş və həmin şəhərin Əsri məzarlığında dəfn olunmuşdur.

Azərbaycan tarixində müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş M.Ə.Rəsulzadənin Azərbaycan tarixində fəaliyyəti unudulmur, daim xatırlanır, yad edilir, ehtiramla anılır. Ruhu şad olsun. Azərbaycanın dövlət müstəqilliyi vətənsevər xalqının birliyi ilə əbədi olacaqdır!

## Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**30 dekabr 2023, 16:39**

**2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.**

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

## ATAMALI TALIBOĞLU
## (Neftçala rayonu Xəzər kəndi)



### SAĞ OL, XİLASKARIMIZ!

Tərifə layiqdir igid adamlar,
Qəlbimiz onları sevməsin niyə?
Onlarda dağ gücü, dağ qüvvəsi var-
Onlar sinə gərib hər çətinliyə...

Həyatda zəhmətlə ucalır insan,
Hər insan qiymətli sərvət kimidir.
Rahat qazanılan həm şöhrət, həm şan,
Saxta pul kimidir, sənəd kimidir.

Həyat şirin oldu, yaşlandıqca sən,
Qaldı ürəyində hələ çox murad.
Gördün ki, Qarabağ gedibdir əldən-
Dincliyin olmadı heç zaman bir az.

"Dəmir Yumruğ"unla girdin meydana,
Az müddət içində qələbə çaldın.
Şöhrətin yayıldı bütün cahana,
Xalqın ürəyində əbədi qaldın.

Çox adlar yox olub, itib səsləri,
Yerini, yurdunu xəyal da bilmir.
Şöhrətin arxasınca qaçan kəsləri,
Çox zaman şöhrət də sağalda bilmir.

Səninsə qəlbinin aləmi başqa,
Müqəddəs saymısan duzu, çörəyi.
Gözünü yummadın hər vaxt nahaqqa,
Qanadlı quş saydın arzu, diləyi.

Biz səni həmişə gördük şən, gülər,
Bildik ki, qəlbində dərd böyük deyil.
Dünyaya yük olub üzü dönüklər,
Qəlbi geniş olan ona yük deyil.

Yaşadın ömrünü keçirmədin boş,
Nə qədər xeyirxah, nəcib iş gördün.
Bu yolda hicran da sənə gəldi xoş-
Coşqun bir dənizə bənzədi ömrün.

# 7 FEVRAL - SEÇKİLƏRDƏ FƏAL İŞTİRAK EDƏK!

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 dekabr 2023-cü il tarixli Sərəncamına müvafiq olaraq 7 fevral 2024-cü ildə ölkəmizdə növbədənkənar Azərbaycan Respublikası Prezident seçkiləri keçiriləcəkdir.**

**Prezident seçkiləri bütün Azərbaycan Respublikasının ərazisini əhatə edəcək ilk seçkidir. Dövlətimizin qarşısında olan əsas məsələlər artıq öz həllini tapıb, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunmuşdur. Prezident seçkiləri də bir dövrün başa çatması və yeni çağırışlardan xəbər verir.**

**İndi ölkəmizin qarşısında yeni hədəflər dayanır. Prezident seçkiləri yeni hədəflərə doğru hərəkətə keçmək üçün başlanğıc olacaq.**

**Əziz həmvətənlər! Seçkilərdə iştirak edərək ən layiqli namizədə səs verək!**

## Azərbaycan ictimaiyyəti adından Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı aşağılayıcı münasibətlə bağlı - Bəyanat

Azərbaycan ictimaiyyəti adından Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı aşağılayıcı münasibətlə bağlı bəyanat qəbul olunub.

"Gündoğar" AZƏRTAC-a istinadən xəbər verir ki, bəyanatda deyilir: "Biz – Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət və elm xadimləri, vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, Yelisey sarayının sifarişi ilə Fransanın Evian-Le Bən şəhərində Xurşidbanu Natəvanın heykəlinə qarşı nümayiş etdirilən rəftarı qəbuledilməz sayırıq, abidənin üzərinin bağlanmasını Azərbaycan mədəniyyətinin təhqir edilməsi kimi dəyərləndiririk.

Xurşidbanu Natəvan bütün Şərqdə və İslam dünyasında görkəmli şairə, rəssam, maarifçi və xeyriyyəçi, qadın azadlığı, qadın hüquqları uğrunda mübariz kimi tanınır, onun əsərləri Azərbaycanda dövlət varidatı elan olunub. Görkəmli fransız yazıçısı Aleksandr Dümanın da əsərlərində bəhs etdiyi Natəvan, eyni zamanda, Azərbaycan və Fransa xalqları arasında dostluğun tərənnümçüsü kimi tanınır.

Evian-Le Bən şəhərində baş vermiş rəzalət Fransa hakimiyyətində azərbaycanofobiya, türkofobiya, islamafobiyanın hansı həddə çatdığını əyani şəkildə göstərir..."

Bəyanatda bildirilmişdir ki, 2020-ci il Vətən müharibəsi dövründə Azərbaycan Fransa tərəfindən davamlı şəkildə iftiralarla üzləşdi. Bu gün də bütün beynəlxalq platformalarda Fransa hakimiyyəti Azərbaycana qarşı hücuma keçib. Biz yaxşı başa düşürük ki, bu, Azərbaycanın işğalçı Ermənistan üzərində qazandığı tarixi Zəfərin qisasıdır. Yelisey sarayından buna son qoyulmasını tələb edirik.

Fransa hakimiyyətini Natəvanın heykəli ilə əlaqədar rüsvayçılığı aradan qaldırmağa, həmin parkda yerləşdirilmiş lövhədə silinmiş "Azərbaycan Bağı" sözlərini yerinə qaytarmağa çağırırıq.Biz Fransanın Azərbaycandakı səfirinə indiyədək getməkdən imtina etdiyi Şuşada Natəvanın abidəsini ziyarət etməyə mənəvi borcu olduğunu xatırladırıq..."

...Yelisey sarayı Azərbaycan bədii fikrinin və mədəniyyətinin görkəmli xadiminə qarşı bu hərəkətlər, azərbaycanlı diplomatların, jurnalistlərin Fransadan çıxarması əvəzinə, Parisdəki Azərbaycan səfirliyinə edilmiş hücumu araşdırmalı, günahkarları cəzalandırmalıdır..."

***Bəyanat tanınmış elm, mədəniyyət , incəsənət xadimlərinin imzası ilə təsdiq edilmişdir.***

# UNUTSAQ, UNUDULARIQ...

## SAHİB MÜƏLLİM FENOMENİ VƏ YA 100 YAŞLI MÜƏLLİMİMİZİ XATIRLAYARKƏN...

Məktəb elm məbədgahı, müəllim isə zülmət səltənətindən aydınlığa doğru açılan nur, işıq qapısıdır. Müəllim ömrünü elm, bilik və ağıl bulağının çeşməsinə bənzətsək, yanılmarıq.

Ulu Məhəmməd(s) peyğəmbərdən başlamış bütün dahi şəxsiyyətlər elm və bilik pərvanəsi olan müəllimə çox böyük ehtiram göstərmiş, onların zəhmətini yüksək qiymətləndirmişlər. Belə təhsil fədailərindən biri də Sahib Məhəmməd oğlu Kərimovdur.

Yüz il öncə rayonumuzun Yuxarı Qaramanlı kəndində yaşayan Məhəmməd baba ilə Saray nənənin səkkizinci uşaqları dünyaya göz açanda adını Sahib qoydular. Homerin sözləri yada düşür. ***"Hər kəs doğulduğu anda ata-anasından şirin bir hədiyyə olaraq ad alır".*** İlk təhsilini Yuxarı Qaramanlıda ibtidai məktəbdə alan on yaşlı Sahib Aşağı Surra kəndindəki yeddilik məktəbi bitirir, sənədlərini Salyandakı pedaqoji məktəbə verir. O zaman məktəbin



rəhbəri Şükürbəyli müəllim idi. Pedaqoji məktəbi bitirdikdən sonra Neft və Kimya İnstitutunda oxuyarkən 23 avqust 1942-ci ildə Böyük Vətən müharibəsinə çağırılmış, döyüşə-döyüşə Berlinə kimi yol qət etmişdir. Müharibədən sonra oxuduğu ali təhsil ocağına yox, sənədlərini Azərbaycan Pedaqoji İnstitutuna vermişdir. Oranı uğurla başa vurub öz kəndlərində dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdır. Sıravi müəllimlikdən məktəbin direktoru vəzifəsinə irəli çəkilmişdir.

1950-ci ildə Qədimkənd kənd sakini Səyyarə Abdul qızı ilə ailə həyatı qurmuşdur. İki oğlu, beş qızı (Yasəmən adlı qızı 53 yaşında dünyasını dəyişmişdir) olmuşdur. Hazırda 17 nəvəsi, 31 nəticəsi, 3 kötükcəsi yaşayır.

XX əsrin ortalarında Yuxarı Qaramanlı kəndində məktəb yeddiillik idi. 1960-cı ilin tədrisində məktəb artıq səkkizillik olmuşdur. 1969-cu ildən isə artıq məktəb orta təhsil ocağına çevrildi, yardımçı binalar tikilib istifadəyə verildi. Kəndimizdə təlimin orta təhsil pilləsinə qalxmasında Sahib müəllimin müstəsna xidmətləri olmuşdur.

Filosof Ərəstunun dediklərindən: ***"Mən müəllimləri valideynlərimdən daha çox sevirəm. Valideynlərim məni göylərdən yerə endirmiş, müəllimlərim isə məni yenidən yerdən göyə qaldırmışlar".*** Bu kəlam Sahib müəllimin şəxsiyyətinə, xarakterinə uyğundur, onun insani keyfiyyətlərini özündə ehtiva edən nümunədir. Biz bu gün Sahib müəllim haqqında yazırıqsa, onu olduğu kimi oxucularımıza təqdim etməyə çalışacağıq.

***"Sahib müəllim həyatı, insanları çox sevərdi. Mədəni, sakit təbiətli adam idi".*** R.Ərəstunoğlu, "Xatirələrdə yaşayanlar, unudulmazlar" kitabından.

II Qaralı kənd orta məktəbinin direktoru, əmək və müharibə veteranı Əsəd Hüseynov: ***"O, təhsil sahəsində qabaqcıl təcrübənin öyrənilməsində və yayılmasında var qüvvəsini sərf edər, məktəbdə nizam-intizama diqqət verər, müəllimlərə qayğı göstərərdi".***

Sahib müəllimin şagirdi olmuş və onu yaxından tanıyan Nazim Sayılov: "***Sahib müəllim nəinki rayonda, hətta respublikada qabaqcıl maarif xadimi tanınırdı. O, bizim kəndimizin Nizamisi idi".***

Sahib müəllim haqqında deyilən dəyərli sözlər indi də öz əhəmiyyətini itirmir. Akademik Hacı İmamverdi Əbilov: ***"Sahib müəllim Kərimov mənim qəlbimdə işıqlı bir insan kimi yaşayır. Akif müəllim Cəfərov ilə 27 may 1956-cı ildə onun evində qonaq olmuşam".*** "Leytenant Kərimov və dostları" kitabının müəllifi Məmməd Kazım 17.01.1981-ci ildə yazmışdır: ***"Poeziyamızın yorulmaz təbliğatçısı, ədəbiyyat müəllimi Sahib Kərimova uzun ömür, bol sevinc arzulayıram".***

"Marallar da duz yeyərmiş" kitabının müəllifi böyük **Xəlil Rza:** ***"Balalarımızın yüksəlişi uğrunda məşəl kimi yanan Sahib müəllimə dost yadigarı".*** 31 iyul 1982-ci il. Belə nümunələr Sahib müəllimin pedaqoji fəaliyyətində çox olmuşdur.

Sahib müəllim sadəlik içində böyüklük yaradan ziyalı idi. O, adilikdən ucalığa yüksələn parlaq şəxsiyyət, müdrik el ağsaqqalı, xeyir-şərimizin başında dayanan ziyalı idi. Onu hamı sevirdi. Uşaqdan böyüyə kimi. Sahib müəllim bu hörmət və məhəbbəti, el qayğısını dərin zəkası, tükənməz sevgisi və insanlığı ilə qazanmışdı.

*Sahib müəllim çiynində*
*El yükünü daşıdı.*
*Bu dünyadan köçsə də,*
*Könüllərdə yaşadı.*

Elə bu insani keyfiyyətlərinə görə onu sevən dost və tanışları çox idi. Səhiyyə əlaçısı Adbala Sultanov, el ağsaqqalı Gülbala Süleymanov, müəllimlərdən Müseyib Mütəllimov, Əsəd Hüseynov, İsrafil Əhmədov, Akif Cəfərov, Sabir Novruzov, Lütfəli Əliyev, Məmmədağa Məmmədov, Yusif Novruzov, Yəhya Əliyev, İmamverdi Əbilov, Tədbir Mahmudov, Əzizağa Cəfərov, Səftər Məmmədov, Xanoğlan Məmmədov, Əlisahib Bağırov, İbrahim İbrahimov, Mehdi Mehdiyev, tanınmış şair Soltan Abbas, Cəfər Mehdiyev və Hüseynağa Xəlilovu göstərmək olar.

17 yanvar 1981-ci ildə "Hünər" hərbi-vətənpərvərlik verilişinin rəhbəri Məmməd Kazım, aparıcı şair Ramiz Duyğun, operator Faiq Aslanbəyov, quruluşçu rejissor Akif Əliyev Sahib müəllimin qonağı oldular. Səhərisi 18.01. 1981-ci ildə Sahib müəllimdən müsahibə aldılar. Elə həmin gün Böyük Oriyat kəndindəki Texniki Peşə məktəbində tədbir keçirildi. Sahib müəllim orada çıxış etdi. Veriliş Azərbaycan Televiziyasında 30.01. 1981-ci ildə göstərildi.

Arxadakı illər ərzində Sahib müəllim Kərimov səmərəli pedaqoji fəaliyyətinə görə Azərbaycan Maarif Nazirliyinin, Rayon Maarif Şöbəsinin, Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanlarına layiq görülmüşdür.

1989-cu il may ayında Xalq şairi Xəlil Rza Ulutürk, şair, polkovnik Ramiz Duyğun, şairə Zərxanım Ülvi ilə Yuxarı Qaramanlı kənd məktəbində görüş keçirilmişdir. Görüşü giriş sözü ilə Sahib müəllim açmış və qonaqları salamlamışdır. Məmməd müəllim məruzə ilə çıxış etmiş, səhiyyə əlaçısı Əliqulu Əliyev görüş haqqında təəssüratını bölüşmüşdür.

15.11.2023-cü ildə R.Əliyev adına Yuxarı Qaramanlı kənd tam orta məktəbinin akt zalında Sahib Kərimovun anadan olmasının 100 illiyi qeyd edildi. Əsasını qoymuş, 33 il fasiləsiz direktor işlədiyi məktəbdə onun yubileyini keçirmək üçün vaxtilə onunla işləmiş müəllimlər, yetişdirdiyi tələbələr, kənd ağsaqqalları, ictimaiyyətin nümayəndələri və respublikanın müxtəlif regionlarından qonaqlar dəvət olunmuşdur. Xatirə görüşündə Sahib müəllimin şərəfinə yazılmış bədii nümunələr dinlənildi, onunla bağlı maraqlı xatirələr söyləniIdi. Görüşdə Sahib müəllimin övladları, nəvələri, yaxın qohumları çıxış etdilər. Səhiyyə əlaçısı, publisist Əliqulu Əliyevin, Zeyid Tağıyevin, Telman Süleymanovun, Telman Əliyevin və oğlu Vaqif Kərimovun çıxışları maraqla qarşılandı.Sonda tədbirin təşkilatçısı adından bütün iştirakçılara təşəkkürümüzü bildirdik.

Müəllim, ziyalı ömrü yanar çıraqdır. Bu çırağın sönməməsi üçün biz o insanları xatırlamalıyıq, əməllərini yaşatmalıyıq. Milli-mənəvi dəyərlərimizi yaşatmaq, milli adət-ənənələrimizə sadiq qalmaq bizim vətəndaşlıq borcumuzdur, milli dəyərlərimizə ehtiram və hörmətimizdir. Axı, gələcəyimiz bizdən başlayır. Bizə miras qalan mədəniyyətimizi, əxlaqi keyfiyyətlərimizi, dədə-baba



qaydalarımızı gələcək nəsillərə ötürə bilsək, müasir gənclik daha vətənpərvər, yurdsevər, keçmişinə sadiq ruhda böyüyər. Torpağının, Vətəninin əsl sahibinə çevrilər. Hesab edirik ki, Sahib Kərimov kimi nur daşıyıcılarının 100 illik yubileyini keçirməklə biz keçmişimizə, bu günə və bütövlükdə özümüzə qiymət, dəyər vermiş oluruq. Çünki türklər bütöv olanda, bir olanda, özünə güvənəndə daha güclü olur. Biz bu mənəvi gücü sizdən aldıq əziz və unudulmaz Sahib müəllim!

*Sahib Məhəmməd oğlu,*
*Adın dillər əzbəri.*
*Öyrətmisən sən bizə*
*Mübtədanı, xəbəri.*

*Kür çayının axarı,*
*Yurdumuzun baharı.*
*İnsanlıq zirvəsində*
*Sən hamıdan yuxarı.*

*İşıqdın, nur yağdırdın,*
*Elmi günəş sayırdın,*
*Dünya, sənə nə deyim*
*Onu bizdən ayırdın!*

**Unudulmaz müəllimimiz**
**Sahib Kərimovun əziz xatirəsinə**

**Layiqsən hər cür hörmətə**

**Bizim kəndimizə işıq çəkildi,**
**Kəndimiz, evimiz nura bələndi.**
**Sahib müəllim də bir işıq idi**
**Zaman ələyində vaxtsız ələndi.**

**Sabirdən, Vurğundan əzbər deyərdi,**
**Hamıya birinci salam verərdi.**
**Böyüyün, kiçiyin yerin bilərdi**
**Elin dərdin çəkib qəm də yeyərdi.**

**Sadəlik, adilik onun xisləti,**
**İnsan sərrafıydı, vardı hörməti,**
**Bura toplaşanlar onun dövləti,**
**O böyük insanın, hayıf, qisməti –**
**Budaqdan süzülən yarpaqtək soldu,**
**Ömrü, nəsillərə örnəkdi, yoldu.**

**Məktəbin, sənətin təməlin qoydu,**
**Həyatı gənclərə nümunə oldu.**
**Bu tədbir sənə sonsuz ehtiram.**
**O böyük adına kiçik xatirə,**
**Ürəyimin səsini sənə yazıram**
**Gəlməz tərəziyə, gəlməz qiymətə.**

**Vüqarın sığmadı heç bir minnətə,**
**Ürəyimin səsini sənə yazıram**
**Layiqsən, müəllim, hər cür hörmətə.**

***06.11.2023***

***Nazim Teymuroğlu,***
***Şair, publisist.***

***Əli Əlibəyli,***
***Səhiyyə əlaçısı, publisist.***

# Şair, yazıçı, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü ZAUR ƏRMUĞANIN "Yovşan ətri" povestindən...

*(əvvəli qəzetimizin noyabr sayında)*



... Dolaşalar qoyunların qıçları arasından keçərək təzəklə dolu olan torpağı dimdikləyir, sağsağanlar yerdə atıla-atıla quyruqlarını aşağı, yuxarı hərlədirdilər. Yağış altında islanmış köhnə təzəklərin içi bərk və quru, canı da əriyib yüngül olduğundan buludluğa girib-çıxan günəşin yorğun şöləsi ilə nəmişliyi daha tez isinmiş, küləyin əsimi onları bir az da qurutmuşdu. Çölün yeri tikə-tikə səpələnmiş təzək qırıntıları ilə dolu idi. Bu ərazilərdən kəndin naxırı da o başdan keçir, sürünün otlaq sahəsini tərk edib çobanın hay-harayı ilə başqa səmtlərə yön alırdı. Öz başına otlayan inəklərə də burada rast gəlmək olurdu. Rəngi kömür kimi qaralmış təzəklərin ortasından dəlik açılmış, yerdən çıxan göy ot, tikan deşikdən yuxarı qalxmışdı. Bəzi təzəklərin üstündə sılf otlar cücərirdi. Quru təzəklərin birini uzun dimdiyi ilə çevirən sağsağan altdan üzə çıxan peyinqurdunu, ala-bəzək cücüləri bir udumla yeyir, bolluca yem yeri əldə etdiyi üçün dəlmə-deşiklərdən torpağın üzərinə çıxan ərəbdovşanlarına belə gözünün ucu ilə də baxmırdı.

Əzəmət Alapaçanın belindən düşəndə at başını yuxarı qaldıraraq qulaqlarını şappıldada-şappıldada quyruğunu oynatdı, iri burun dəliklərindən, ağzından astadan səs çıxarıb başını aşağı endirdi, otlamağa başladı. Əzəmət atın yüyənini başı üzərindən arxaya keçirib yəhərin üstünə atdı. Tüfəngini, əlindəki ağacı da kənardakı iri daşa söykədi. Əli ilə qara, qıvraq yunlu papağını alnından azca yuxarı çəkdi. Yapıncısının boynundan bağlanmış ipi bir az boşaltdı. Ocaq qalamaq üçün odun, çırpı yığmaq fikri ilə yulğunluğa yaxınlaşdı. Yerdən quru budaqları, çırpıları əyilib bir-bir götürüb qucağına aldı. Çomağını söykədiyi iri daşın yanına gəldi. Çırpıları qucağından yerə atıb sırıqlısının cibindən kibrit çıxardı. Quru qarağan çöplərini ovcuna yığıb odunun altına dürtdü. Kibrit çəkdi. Quru çöplər alışdıqca tüstü buğum-buğum yuxarı qalxır, çırpıları oda tuturdu. Əzəmət çöməlmiş halda burnunu çəkərək üstünə sarı buğumlanan tüstüdən yana keçdi. Yan tərəfə atdığı yoğun odunları götürərək ayağı altına qoyub əlləri ilə qarır, parçalayıb ocağa qoydu.

İri daşın yanında, ocağa yaxın yerdə qalın ağac kötüyünün üstündə oturub əlindəki yulğun çubuğu ilə odunu, çırpını oda çəkərək isinirdi. Əlini tütün kisəsinə saldı. Çubuğunu doldurdu. Ocaqdan yanar çöpü götürüb tütünü alışdırdı. Bir qullab çəkdi. Burnundan tüstü çıxdı, nazik dodaqları ilə çubuğu yenə sümürməyə başladı.

Yağış kəssə də, ara-sıra yerə düşən iri damlalar tutqun havanın soyuqluğunu bir az da artırır, qara topa buludların şirə, pələngə bənzər görkəmindən qorxurmuş kimi qaçıb gizlənən günəş də canındakı həniri soyudurdu.

Əzəmət göyə baxdı. Sonra ayağa qalxıb atın xurcunundan şey-şüyləri çıxartdı. Çay dəmlədi. Dəmin ətri ürəyə, cana elə xoş yayılırdı ki... Kəllə qənd tikəsini dodaqları arasında sıxıb balaca dəmir bardağı ağzına yaxınlaşdırdı. Çay köz üstündə yaxşı dəm almışdı. Çayı ləzzətlə içib bardağa bir də süzdü. Çəkmələrini ocağa sarı uzatdı ki, ayağının altına közdən isti dəysin. Ocaq qıçlarını isitdikcə dizlərini əlləri ilə ovuşdurmağa başladı. Sonra qabağa əyilib daşın üstünə qoyduğu dəmir bardağı əlinə aldı. Buğum qalxan çaydan qurtum-qurtum içdikcə alnı, çənəsi, gözlərinin altı puçur-puçur tərləyirdi. Hərdən ətrafa boylanaraq sürüyə göz yetirir, hər şeyin qaydasınca olduğunu görəndən sonra üzünü yenə ocağa sarı tuturdu: Cınqı sürünü dolaşırdı, Cəldayaq qarşıdakı təpənin lap yuxarısında dayanıb quyruğunu yelləđirdi, Alabaş yerində fərağat durmuşdu.

Əzəmət itlərə çörək atdı. İtlər quyruqlarını yelləđərək çörəyi ağızlarında marçıldada-marçıldada yeyirdilər.

Yenə yanını daşın üstünə qoyub oturdu, əlini çörəyə, yuxaya, buğumlanan isti çaya uzatdı. Havanın soyuğunda qarnını yaxşıca doyurmaq can bərkidən şey idi. Yoğun barmaqları, iri əlləri, girdə sifəti, enli kürəyi vardı Əzəmətin. Nə şaxtadan qorxardı, nə tufandan, çöl adamlarına məxsus yanaqları qızarmış, gözü əziyyətə öyrəşmişdi. Canı möhkəm idi, yaşı keçməsinə baxmayaraq, heç də işdən yorulmazdı. Əsil tərəkəmə, əsil çölçü, əsil çoban idi o. Nahaq yerə çomağının arxası yeyilməmişdi ki... Əzəmət həmişə deyərdi: "Çobandan soruşmazlar, nə qədər qoyunun var. Deyərlər, var kərə, var kürə, var qara qulaq!" Tərəkəmələrdə ta ata-babadan deyilən bir deyim Əzəmətin də dilinin əzbəri idi: "Bağ alarsan, bağlanarsan, dağ alarsan, dağlanarsan, qoyun alarsan, yağlanarsan. Çünki heyvanın qədrini biləsən gərək, heyvan-qara dövlətdir, vardır. Nahaq yerə babalarımız deməyiblər ki, qoyunsuz evlər gördüm, suyu qurumuş dəyirmana bənzər, qoyunlu evlər gördüm, qurulu yaya bənzər. Qoyun xırdabaş heyvandır, o mənada ki, əziyyəti, zəhməti çoxdur, gərək iş yarıdan olasan, işi zəpdinə yetirəsən. Cəfa ki çəkmədin, səfa sürərsənmi? Ən bərəkətlisi elə qoyundur, vallah! Yunu, südü, əti, dərisinəcən bərəkətdir hamısı. Yununu satarsan, pul edərsən, satmazsan, özün işlədərsən. Xalça, kilim, gəvə, xurcun toxutdurarsan, köynək, əlcək, papaq, ta ayaqlığa qədər. Yundan keçə, cicim hazırlayarsan, hamısı döşənəcəkdir. Südündən yağ, pendir, qatıq, ayran, şor alarsan, satdığını da pula çevirərsən. Dərisini döşəyərsən qışda altına, canına soyuq dəyməz. Ətini də kəsib yeyərsən. Gördün pulun tükənib, heyvanı çıxararsan bazara."

Əzəmət heyvan-qaraya yaxşı baxardı. Dünyagörmüş, canını əməkdə bərkitmiş qoca tanıdığı cavan çobanlara həmişə məsləhət görürdü ki, işdən heç vaxt qorxmasınlar, çünki işə can yandırmasan, dəyə qurulu qalmaz. "Evi abad edən, dolanışığı, güzaranı quran zəhmətə bağlılıqdan keçir, ay bala!" -- deyirdi kişi. Deyirdi: "Qoyunu kökəldən şoran otdur, şirin, şit ot heyvanı kökəltməz, ona görə də şirin torpaqlarda olan qoyun-quzuya həmişə duz verərlər. Duzu tökərlər daşın üstünə, heyvanlar da başlayar yalamağa. Günaşırı, bəzən iki gündən bir duz verərlər qoyuna. Bizim yerlərdə isə buna ehtiyac yoxdur, çünki bu ərazilər, çöl-bayır, bu boyda düzən şoran torpaqlardan ibarətdir. Şoran torpaqlarda bitən otun dadı bambaşqadır, heyvan şoran otdan həzz alır, yemi gözünə təpir, yaxşı yeyir, yaxşı da kökəlir. Şoran otlaqda otlayan heyvanın əti dadlı olur. Bunun hamısı torpaqdan, sudan, havadan asılıdır, ən çox da torpaqdan gəlir hamısı."

***

-- Ay qız, Sədaqət, daha yuvanma, get su dalınca, çəlləklər tamam boşalıb, deyəsən, axşama suyumuz qalmayacaq. -- Hənifə üzünü qızına tutub dilləndi. Arvad çay daşından hörülmüş daxmanın qapısını açıb içəriyə girəndə kisə arasına büküb gətirdiyi quru təzəkləri yerə qoydu. Dəmir sobanın balaca dəliklər açılmış ağzına baxdı: ocaq yaxşı yanırdı. Kisəni dörd ayağı üzərində dayanmış sobanın altına sərdi. Təzəkləri arvad özü kündə-kündə yapmış, damın, hinin üstünə cərgə-cərgə, səliqə ilə yığıb qurutmuşdu ki, qışda od-ocaq üçün işlədə bilsinlər. Quru qalsın deyə yağışlar düşməzdən qabaq hamısını üst-üstə odunluğa yığıb saxlamışdı. Odunluğun yan-yörəsi, üstü də bağlı idi. Buna görə yağış, qar tökəndə odunlar da, təzəklər də qupquru qalır, istifadəyə yararlı olurdu. İndi isə zamanı gəlib çatmışdı. Sobaya, sac altına, təndirə təzək atıb yandırır, bununla da oduna qənaət edirdilər. Bu yerlərdə meşə olmadığından odun əldə etmək də qəlizləşirdi. Balta, kəndir götürüb çölə yollanar, yulğun çapıb şələləyər, at belində obaya dönərdilər. Əzəmət də, arvadı Hənifə də çölün odunu ilə uzun illərin şaxtasını əridib sazağını sındırmış, bu günə belə gəlib çatmışdılar.

Qız anasının sözündən sonra başını yun şalla bərk bağlayıb sırıqlısına büründü. Evdən çıxanda divara vurulmuş mıxçadan qırmancı götürdü. Tövləyə girib boz ürgəni bayıra çıxartdı. Arabanı ata qoşdu.

Sədaqət göz açan gündən çöl həyatı görmüşdü, bunun üçün də çətinliyə öyrəşmişdi. Gənc qız olmasına baxmayaraq, ağır işlərin öhdəsindən gəlməyi yaxşı bacarırdı. Ot çalar, odun doğrayar, at sürərdi. Suya obadan uzağa -- kanal başına gedərdilər. Ağır su qablarını kanaldan doldurub arabaya yükləyər, sonra da geriyə dönərdilər.

-- Yoldan muğayat ol, çiskindir, ehtiyatı əldən buraxma! -- Anası daxmanın qarşısında dayanıb qızının dalınca dedi. -- Atı yavaş sür ha!

Qız atın yüyənini çəkərək arxaya boylandı:

-- Arxayın ol, anacan!

-- Xəmir yoğurmuşam, gərək kündələyəm, acıyıb. Yoxsa gedərdim səninlə köməyə.

-- Niyə narahat olursan? Mən özüm! -- Ani sükutdan sonra qız yenə səsləndi. -- Mən gələnə kimi çörəkləri bişir.

-- Salamat ol!

-- Di yaxşı!

Atın yüyəni çəkiləndə boz ürgənin dırnaqları yerdən götürüldü. At başını yırğalayaraq astadan yola üz qoydu. Arabanın təkərləri cırıldaya-cırıldaya irəliyə diyirlənir, iri su qabları bir-birinə toxunduqda cingiltili səslər çıxarırdı.

Kanaldan axan su arxlarla ayrı-ayrı istiqamətlərə, uzaq ərazilərə yol götürürdü. Su kanalı enli və dərin idi. İçi bol Kür suyu ilə dolu olardı həmişə. Yay, qış -- il uzunu kanalın suyu əskilməzdi. Kanaldan arxlara ayrılan su göz yaşı kimi dumduru, tərtəmiz idi. Arxlar elə də dərin olmazdı, asanlıqla buradan su götürmək mümkün idi. Dərin su kanalının o tərəf-bu tərəfi böyürtkən, yulğun kolları ilə, yan-yörəsi, hətta içərisi də qamışlarla dolu idi. Bura xeyli quş yığılardı. Ördək, qaşqaldaq, cüllütlə yanaşı, qazlar da gələrdi suya. Gözləri ilə burada quzğun görənlər də olub. Çölçülər danışırdılar ki, sürüdən körpə quzuları ağzında aparan quzğunlar varmış bu yerlərdə. Ona görə də quş quşlamağa, balıq ovlamağa gələnlərin sayı çox idi. Adamlar boş vaxtlarında tüfəng, tilov götürüb ov edər, qazanlarını, tavalarını quş əti ilə, balıqla doldurub güzaran sürərdilər. Sədaqət tüfəng atmağı bilirdi, bunu ona atası Əzəmət öyrətmişdi. Amma qız uşağı olduğundan o heç bir vaxt çölə quşa, yainki balıq tutmağa gəlməmişdi. Sədaqət elə qoçaq idi ki, atası onu çölə ova gətirsəydi, buna etiraz eləməzdi, bəlkə də, yaxşıca quş quşlayar, balıq da tutardı. Sədaqət Əzəmətin, Hənifə arvadın gözünün ağı, qarası olan bircə övladı idi. Körpə ikən övladları tələf olur, salamat qalmırdılar. Çox duadan, nəzir-niyazdan sonra bircə bu qız sağlam qala bilmişdi. Gözəlliyi gözəllik, ədəbli-ərkanlı, işgüzar, səliqəli, mehriban, dilişirin bir qız idi. Utancaq deyildi, zirək və çevik idi. Heç nədən çəkinməz, obada at sürər, atası ilə birlikdə əlinə dəryaz alıb yaz otu biçərdi, sonra da arabaya yükləyib gətirdikləri otu uzun saplı yaba ilə damın üzərinə sərib qurudardılar. Ev işlərində anasına, çöl işlərində isə atasına kömək əlini uzadar, bacarıq və qabiliyyətinə görə valideyinlərinin də, onu tanıyan adamların da nəzərində zəhmətsevərliyi ilə sevilərdi. Odur ki, Sədaqətin xətir-hörmətini hər kəs saxlayardı. Cəmi iyimi yaşı vardı, amma böyüklə böyük, uşaqla uşaq idi. Sadə, səmimi, həm də çox ağıllı, qeyrətli qız idi. Havanın sərtliyinə də öyrəşmişdi o. Qışda qar yağanda xalça-kilimi qırağa çıxarıb təmizləyərdi; qarı kilimin üstünə səpələyib süpürgə ilə süpürərdi. Belə olanda daha təmiz olardı döşənəcəklər. Bugünkü sazaq, havanın çiskinli olması, şaxta onu qorxutmadı. Çölə çıxdı, su dalınca at-araba ilə kanala, arx üstünə gəldi.

-- Hey! Hey-hey! -- Qız boz ürgəni kanalın yaxınlığından axan arxın yanına sürdü.

At sağa burulub qarşıya yön tutanda arabanın da təkərlərini arxasınca apardı. Sədaqət qamçını bir əlində tutmuş, o biri əli ilə atın yüyənindən yapışıb arabanı hamar yerdə saxlamaq üçün dikin üstünə qalxdı. Yüyən dartıldı:

-- Dur! Dur görüm! -- Atı dayandırmaq üçün qız ağzı ilə səs də çıxartdı. Yüyənin dartılmağı ilə səsin çıxması eyni vaxta düşdü.

Boz ürgə ayaqlarını saxladı. Dizini qatlayaraq qabaq ayaqlarının birini yuxarı qaldırdı, sonra yüngülcə yerə basdı. Qız arabadan endi. Ağır su qablarını kol-koslu torpağın üstünə qoydu. Kanala sarı yönəldi. Su suppultu ilə axırdı. Bir-birinin ardınca baş-başa vermiş çılpaq qoca söyüd ağaclarının kölgəsi suya düşürdü...

(ardı var...)



# İLK TÜRK ASTRONAVT KOSMOSDA

***R.T. ƏRDOĞAN: "Türkiyə Milli Kosmos Proqramı çərçivəsində ilk dəfə bir vətəndaşımızı kosmosa elmi missiya üçün göndərmək məqsədimizə çatmağa çox yaxınıq. Qürur duy, Türkiyə".***

**Məlum olduğu kimi 19 yanvar tarixində Alper Gezeravcı Türkiyə saatı ilə 00:49-da Ax3 missiyası ilə Beynəlxalq Kosmik Stansiyaya göndərilib. Türkiyənin ilk Pilotlu Kosmos Missiyası çərçivəsində Alper Gezeravcı 14 gün BKS-də qalacaq və 13 fərqli elmi təcrübə həyata keçirəcək. İlk türk astronavtı Gezeravcı missiyada ispan, italyan və isveçli astronavtlarla birlikdə iştirak edəcək.**

Türkiyənin ilk kosmonavtı Alper Gezeravcı BKS-də ilk mürciətində deyib: ***"Türkiyə olaraq tariximizdə ilk dəfə kosmosa çıxdıq. Elmə və tədqiqat səylərinə töhfə verməyi səbirsizliklə gözləyirik. Mən Qazi Mustafa Kamal Atatürkə və silahdaşlarına, bu vətən uğrunda canından keçən bütün şəhidlərimizə, bura addım atmağımızı təmin edən güclü iradəsi ilə dövlətimizə, bizə bu imkanları yaratdığına görə millətimizə minnətdarlığımı bildirmək istəyirəm. Gələcək göylərdədir!"***

Gezeravcı həmçinin bildirib ki, gecə yarısı operativ uçuşdan qayıtdıqdan sonra xəbərlərə baxarkən, prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyənin 100 illik yubileyində ilk türk insanını kosmosa göndərmək üçün "qiymətsiz qərarı açıqladığını" görüb. Bunun Türkiyə kimi bir ölkə üçün əhəmiyyətli olduğunu vurğulayan **Gezeravcı:** ***"Bu, uşaqlarımızın arzularına hər zaman mane olan bir pərdənin açılması idi. O andan etibarən bu mövzuda ciddi düşünməyə başladım. Bu, reallaşdırmaq istədiyimiz həqiqətən uzun və çətin proses idi. Proqram üçün seçildik. Bu, əla hiss idi. Mənim adımın o qədər də, əhəmiyyəti yoxdur. İnsanlar üçün vacib olan, ölkələrinin gələcəyə addım atmaq və səmanın hüdudlarına deyil, kosmosun dərinliklərinə qədər xəyal qurmaq üçün kifayət qədər qətiyyətli olduğunu xatırlamaqdır"***, - deyib.

"Gündoğar" "Bizimyol.info"ya istinad edərək bildirir ki, **" 5-6 yaşında kənddə nənəsinin yanında olarkən ilk dəfə təyyarə gördüyünü izah edən Gezeravcı dərhal nənəsinə "o təyyarənin sürücüsü olmaq istəyirəm" deyərək fikrini bildirib. Sonralar isə** Gezeravcı qanadlı səmada hər cür manevr edə bilmə duyğusunun onu hər zaman çox sevindirdiyini bildirib: ***"Mən indiyə qədər etdiyim ən çox yüksəklik 51.000 fut idi. Mavi dünyaya gözlə baxanda özümü necə hiss edəcəyimi çox düşünürəm. Kosmosda qanadsız uça bilmək çox gözəl hiss olacaq"***, - deyə o qeyd edib.

## Zöhrab Pirioğlu Qəmli

*(Neftçala rayonu Qaraqaşlı kəndi)*



***Belə bir LİDERƏ ellər səs verir***

*Gedir al sabaha ana yurdumuz,*
*Bu gün müstəqillik yollarındadır.*
*Sönməz cəsarətin gücü, qüvvəti,*
*O, "Dəmir Yumruğ"un qollarındadır!*

*Vətən məhəbbəti ona güc verir,*
*Qəlbin cəsarəti ona güc verir,*
*Ellərin qeyrəti ona güc verir,*
*O sellər arxalı, sellər səs verir,*
*Belə bir Liderə ellər səs verir!*

*Qəlbi sülh səsilə dolu rəhbərin,*
*Azadlıq yoludur, yolu rəhbərin,*
*"Dəmir Yumruğ"udur qolu rəhbərin.*
*O sellər arxalı, sellər səs verir,*
*Belə bir Liderə ellər səs verir!*

*Səslənir sülh sözü hər kəlməsində,*
*Bəşərin səsi var məğrur səsində.*
*O sonsuz günəşdir Yer kürəsində!*
*O sellər arxalı, sellər səs verir,*
*Belə bir Liderə ellər səs verir!*

## ELAN

**Bildirilir ki, Neftçala rayon Bankə qəsəbə sakini Abdullayev Vüqar Əli oğluna 1996/1997-ci tədris ilində Neftçala rayon Ə. Cəfərov adına Bankə qəsəbə 1№-li tam orta məktəbin XI (on birinci) sinfini bitirməsi haqqında ona verilmiş A№ 052525 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

**2024/2025-ci tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair**

**E L A N**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 500 kursantın qəbulu üçün müsabiqə elan edir.**

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2024-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2024-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2024-cü il yanvar ayının 22-dən mart ayının 3-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək namizədin qeydiyyatda olduğu inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

**Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 8880 qaynar xətti, (012) 454-12-78, (012) 590-97-76, (012) 590-99-47.**

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 10 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 8 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, Nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinə olunub "Polis Akademiyasında təhsilə yararlı" olması barədə rəyi sənədləri toplanan polis orqanına dərhal təqdim etməlidirlər. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduqda anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, Nazirliyin seçmə və ya həkim komissiyalarından keçə bilməyən və ya həkim komissiyasına göndəriş aldığı gündən 15 gün ərzində müvafiq rəyi təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİM-in qərarı əsasında seçilmiş abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır. 18 yaşına çatmayan şəxslərlə müqavilə onların qanuni nümayəndələrinin – valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır. Bu şəxslərin Polis Akademiyasına qəbulu müqavilə bağlandıqdan sonra Akademiya rəhbərinin əmri ilə rəsmiləşdirilir və onlar daxili işlər orqanlarının əməkdaşı hesab olunurlar.

Daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilədə abituriyentlərin daxili işlər orqanlarına xidmətə könüllü daxil olması, təhsili başa vurduqdan sonra 7 (yeddi) il müddətində daxili işlər orqanlarında xidmət keçmək vəzifəsi, habelə təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəməyən, yaxud həmin müddətdə öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxan şəxslərin Polis Akademiyasında onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi nəzərdə tutulur.

Daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilənin forması və bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması qaydası Nazirlik tərəfindən müəyyən edilir.

Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclər daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə ilə müəyyən edilmiş müddətdə könüllü ödənilmədikdə məhkəmə qaydasında tutulur.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2024-cü il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla, tədris azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Seçmə komissiyasının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar Akademiyanın ***www.pa.edu.az*** internet saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq istəyənlər Neftçala rayon Polis Şöbəsinə müraciət edə bilər.**
**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (02126) 3-31-49, (02126) 3-10-67, (02126) 3-42-52;**

*Baş redaktor*
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250